# “ Əsrin müqaviləsi “ perspektiv və nailiyyətlər

Neftçilərimiz hər il bu bayramı qürur hissi ilə qeyd edirlər. Bu bayram ulu öndər Heydər Əliyevin Azərbaycan neftçilərinə böyük hədiyyəsidir.

Ulu öndər 2001-ci ildə 20 sentyabr gününün Azərbaycan neftçilərinin peşə bayramı günü kimi qeyd olunması barədə fərman verdi.

Ulu öndər Heydər Əliyevin diqqəti həmişə neftçilərin üzərində olub. Artıq 22 ildir ki, biz bu bayramı qeyd edirik. Bu illərdə çox işlər görülüb. Sizin hamınızı bu bayram münasibətilə təbrik edirəm. Mən ümumiyyətlə bir neçə kəlmə neftçilərimizin Azərbaycan üçün, keçmişdə Sovetlər Birliyi üçün, sonra da müstəqil Azərbaycan üçün gördüyü işlər haqqında qısa da olsa tarixi məlumat vermək istərdim.

Hələ birinci dünya müharibəsində dövlətlər arasında belə bir söhbət var idi ki, kim Bakı neftinə sahib olsa, müharibəni o udacaq. Sovetlər Birliyində Azərbaycan neft sənayesinin gördüyü ən əsas işlərdən biri ikinci dünya müharibəsində müharibəni neft və neft məhsulları ilə təmin etmək idi. O vaxtlar, Azərbaycan müharibəyə lazım olan benzinin 80 %-ni, sürtkü yağlarının isə 90 %-ni təmin edirdi. Bu kömək olmasa idi, o vaxtkı sovet generallarının dediyinə görə hələ müharibənin necə olacağı məlum deyildi. Sonra müharibə qurtardı, Azərbaycan neftçiləri Başqırdıstan, Tatarıstan respublikaları və Sibirdə tapılan yataqlarda işləməklə öz təcrübələrini tətbiq edərək, oradakı kadr hazırlığına da böyük töhfələr vermişlər. Sonra Xəzər dənizində işləmək lazım oldu. Bunu da yenə Azərbaycan neftçilərinin təcrübəsindən istifadə edərək o vaxt Sovetlər Birliyində bütün Xəzər dənizində, İran sərhədindən tutmuş Həştərxana qədər axtarış-kəşfiyyat və hasilat işlərini Azərbaycan neftçilərinə tapşırdılar. Azərbaycan neftçiləri 1970-ci ildən Sovet İttifaqı dağılana qədər Xəzərin bütün sektorlarında Türkmənistan, Qazaxıstan və İranda işlər apararaq bu sektorlarda xeyli yataqlar kəşf etdilər.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini təmin etdi. Müstəqillik dövründə də cənab Heydər Əliyevin rəhbərliyi altında ölkədə bütün sahələrdə, o cümlədən neft sənayesində də təhlil aparıldı. Aydın oldu ki, o vaxtkı Azərbaycan, çətin sosial vəziyyətini ancaq neft sənayesini inkişaf etdirməklə düzəldə bilər. Tez bir zamanda neft sənayesinin vəziyyətini düzəltmək və hasilatı artırmaq lazım idi. Baxmayaraq ki, Azəri-Çıraq-Günəşli hələ sovet dövründə kəşf olunmuşdu, o dövrdə Günəşli yatağının 200 m olan hissəsində işləmək mümkün idi. Maliyyənin və müasir texnikanın olmaması səbəbindən, Azəri-Çıraq yatağında işləmək mümkün olmamışdır. O vaxt Heydər Əliyev neftçiləri yığaraq məsləhətləşmə apardı və aydın oldu ki, biz öz gücümüzlə burada işləyə bilməyəcəyik. Nə buna texnikamız, nə də pulumuz var idi. Bunun üçün 30-40 il gözləməli idik. Buna da Respublikamızın o vaxtkı sosial vəziyyəti imkan vermirdi. Qərara gəldik ki, xarici şirkətləri dəvət edək. Əlbəttə xarici şirkətlərin dəvət olunması bir çox şəxslərin xoşuna gəlmirdi. Yəni ki, bizim özümüzün təcrübəmiz var, bunu biz özümüz edək. Düzdür təcrübə, bilik var idi, ancaq maliyyə vəsaitimiz və texnikamız yox idi. Sonda qərara gəldik ki, xarici şirkətləri dəvət edək. Tender elan olundu. Şirkətlərin çoxu işləmək istədilər. Xüsusilə, Amerikanın AMOKO, İngiltərənin BP şirkətləri və s. Əvvəlcə danışıqlar Qərb ölkələrinin neft şirkətləri ilə 1994-cü ilin mart ayında Bakıda başladı, sonra isə Türkiyənin İstanbul şəhərində davam etdirildi. Bu danışıqların ən ciddisi Amerikanın Hyuston şəhərində 1994-cü il iyulun 21-dən sentyabrın 4-dək 45 gün ərzində, təxminən bir ay yarım çəkdi. Danışıqların əsas aparıcılarından biri Azərbaycan Respublikası Dövlət Neft Şirkətində 1-ci vitse-prezident işləyən cənab İlham Əliyev oldu. Ondan başqa Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, Valeh Ələsgərov, mən və bir çox mütəxəssislər iştirak edirdik. Danışıqlar çox da rahat keçmirdi. Lakin cənab İlham Əliyevin bizimlə olması, onun Moskva Beynəlxalq Münasibətlər İnstitutunu qurtarması, dilləri bilməsi bizə çox kömək edirdi.

Nəhayət, 1994-cü il sentyabrın 20-də Azəri-Çıraq-Günəşli yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə «Əsrin müqaviləsi» imzalandı.



**1994-cü il, Bakı. "Əsrin müqaviləsi" imzalandıqdan sonra Rəhbər Komitənin birinci iclasında**

Bu, Azərbaycanda ikinci dəfə rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin neft sahəsində birinci şah əsəri oldu. Bunun iki ən müsbət cəhətini göstərə bilərik.

Birincisi, siyasi cəhətdən bütün ölkələr başa düşdülər ki, Azərbaycan müstəqil ölkədir, inandılar ki, Azərbaycanda iş görmək olar və heç təsadüfi deyil ki, bu müqavilədən sonra daha 35 müqaviləyə imza atıldı.

İkincisi, iqtisadi cəhətdən Azərbaycanda neftin səviyyəsi 1997-ci ildə 9 mln. t-a düşmüşdü, 2010-cu ildə bu 51 mln. t oldu, 5.6 dəfə artdı.

Sentyabrın 1-dək bu yataqlarda 579 mln. t neft, 212 mlrd. $m^3$ qaz hasil edilmişdi. Artıq 24-cü ildir ki, Azəri-Çıraq-Günəşli layihəsinin iştirakçıları "mənfəət nefti"ndən gəlir əldə edirlər.

2023-cü il sentyabrın 1-dək dünya bazarlarında Azərbaycanın payına düşən 345 mln. t "mənfəət nefti" satılmışdır ki, bu da həmin vaxtadək çıxarılmış Azəri-Çıraq-Günəşli neftinin 60 %-ni təşkil edir. Mənfəət neftinin həcmi ilbəil artır. Bu ilin səkkiz ayında Azəri-Çıraq-Günəşli yataqlarından hasil edilmiş 12.1 mln. t neftin 9 mln. t-nu, yəni 72 %-dən çoxu Azərbaycanın payına düşən mənfəət nefti olmuşdur.

2023-cü il sentyabrın 1-dək dünya bazarlarına 662 mln. t Azərbaycan nefti çıxarılmışdır ki, bunun da 170 mln. t-nu Bakı-Supsa, Bakı-Novorossiysk kəmərləri və dəmiryolu ilə, 492 mln. t-nu isə Bakı-Tbilisi-Ceyhan kəməri vasitəsilə nəql edilmişdir.

"Əsrin müqaviləsi" Azərbaycanı dünyaya yenidən neft ölkəsi kimi tanıtdısa, 1999-cu ilin iyununda ehtiyatları bu günə 1.2 trln. $m^3$ qazdan və 240 mln. t kondensatdan ibarət olan nəhəng Şahdəniz yatağının kəşf edilməsi və "Şahdəniz" qaz layihəsinin müvəffəqiyyətlə həyata keçirilməsi Azərbaycanı dünyaya böyük həcmdə qaz ixrac edən bir ölkə kimi tanıtdırdı.

İşlənmənin əvvəlindən bu ilin sentyabr ayının 1-nə qədər "Şahdəniz" yatağından 200 mlrd. $m^3$ qaz və 43 mln. t-na yaxın kondensat hasil edilmişdir. 2023-cü il sentyabr ayının 1-dək "Şahdəniz-1" layihəsi üzrə Cənubi Qafqaz Boru Kəməri ilə Gürcüstana 13.8 mlrd. $m^3$ və Türkiyəyə 101 mlrd. $m^3$ qaz ixrac edilmişdir.

"Şahdəniz-2" layihəsi çərçivəsində Azərbaycan qazının Avropaya nəql edilməsi və bu məqsədlə "Cənub Qaz Dəhlizi"nin çəkilməsi bizim müasir qaz epopeyamızın ən parlaq fəslidir .

İlkin mərhələdə "Cənub Qaz Dəhlizi" ilə ixrac ediləcək 16 mlrd. $m^3$ Şahdəniz qazının 6 mlrd. $m^3$ Türkiyə Respublikasına, 10 mlrd. $m^3$ isə Avropa ölkələrinə ötürüləcəkdir.

Buradan da görünür ki, rəqəmlərdə hər il artım müşahidə olunur.

İndiyədək TAP kəməri ilə Avropaya 26 mlrd. $m^3$ qaz ixrac edilmişdir ki, bunun da 21.5 mlrd. $m^3$-i İtaliyanın payına düşür.

Azərbaycan neftçiləri üçün əlamətdar hadisələri qeyd emək istərdim.

Abşeron strukturu Azərbaycan geofizikləri tərəfindən seysmik kəşfiyyat işləri nəticəsində 1960-cı ildə aşkar edilmiş və 1993-cü ildə axtarış qazmasına hazırlanmışdır.




**Yatağın şimal qanadında 09.09.2011-ci ildə ikinci quyu qazılmışdır və Abşeron qaz-kondensat yatağı açılmışdır**



Yataq 3 iyul 2023-cü il tarixində mənimsənilməyə verilmiş və hazırda bu quyudan gündəlik 4.3 mln. $m^3$ qaz və 1600 t kondensat hasil edilir.

Yataqda aparılmış geoloji-geofiziki tədqiqatlar nəticəsində sənaye əhəmiyyətli karbohidrogen ehtiyatları aşkar edilib. Yataqda təsdiq edilmiş geoloji qaz və kondensat ehtiyatları üzrə 267 mlrd. $m^3$ qaz və 110 mln. $m^3$ kondensat təşkil edir.

Yataq üzrə ehtimal olunan ehtiyatlar horizontlar üzrə 700 mlrd. $m^3$ qaz və 198 mln. $m^3$ kondensat təşkil edir.

Əldə edilmiş bütün bu nailiyyətlər və uğurlar onu göstərir ki, Azərbaycan Respublikası və onun neft-qaz sənayesi ümummilli lider Heydər Əliyevin başladığı və onun layiqli davamçısı, Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin davam etdirdiyi "Neft strategiyasının" həyata keçirildiyi dövr ərzində əsrə bərabər bir inkişaf yolu keçmişdir.

Sonda Azərbaycan neftçiləri üçün çox əziz bayram olan "20 sentyabr- Neftçilər günü" münasibətilə bütün həmkarlarımı təbrik edir, onlara cansağlığı, işlərində uğurlar, xalqımıza rifah və ölkəmizə işıqlı gələcək arzu edirəm.

**Xoşbəxt Yusifzadə,**
**Azərbaycan Respublikası Dövlət Neft**
**Şirkətinin birinci vitse-prezidenti,**
**Azərbaycan Milli Elmlər Akademiyasının akademiki**